

# Nataniel HOTORN:

Bədənimizdə rast gəlinən bəzi xəstəliklər ruhumuzda gizlənən xəstəliklərin kiçik parçalarıdır.

***

Qoy damğasının üzərini istədiyi kimi örtsün, necə olmaya, acısı hey qəlbində qalacaq.

***

Yaxşı insanlar özlərini həmişə daha sərt mühakimə edərlər.

***

Səmimi olmayan kəslər üçün bütün kainat ikiüzlüdür.

***

Doğru – inancın səsidir.

***

Xoşbəxtlik – qovalanan zaman əsla özünü ələ verməyən kəpənəyə bənzər, amma səssizcə oturub gözləyəndə bir də gördün üzərinə qonub.

***

İnsan üçün böyük dərslərin biri də tarixdir. Aç tarixin səhifələrini və əgər gördün ki, insanlar bir para işlərdə səhv eləyiblər, – dəxi sən həmin səhvi eləmə.